**UOT 32**

# MÜSTƏQİLLİYİN BƏRPASINDAN SONRA AZƏRBAYCANDA DEMOKRATİKLƏŞMƏ VƏ SİYASİ PARTİYALAR

**Yusif MİKAYIL***

Məqalə redaksiyaya daxil olmuşdur: 17 yanvar 2023; çapa qəbul edilmişdir: 23 fevral 2023; online-da çap edilmişdir: 30 mart 2023.
Received: 17th of January, 2023; accepted: 23th of February, 2023; published online: 30th of March, 2023.

***Açar sözlər:*** *siyasi institutlar, siyasi mühit, siyasi partiyalar, milli siyasət, dövlət siyasəti, demokratikləşmə*

## Giriş

Berlin divarının sökülməsi və Sovet Sosialist Respublikaları İttifaqının dağılması XX əsrin ən mühüm hadisələrindən biri kimi tarixə düşdü. Bunun səbəblərini İkinci Dünya Müharibəsindən sonra dünya konyunkturasını ağır şəkildə müəyyən edən soyuq müharibənin sona çatması və real sosializmin süqutu ilə yanaşı, formalaşan yeni siyasi tarazlıqların xarakterində axtarmaq lazımdır. Bunlardan ən önəmlisi yeni dövlətlərin müstəqilliyidir. Soyuq Müharibə dövründə iki siyasi qütbdən yalnız birinin peykləri kimi mövcud ola bilən bu ölkələr yeni inkişaflar nəticəsində müstəqilliklərini yenidən bərpa edərək, suveren dövlətlər mövqeyinə gəlib çatdılar. Bunun gözlənildiyi kimi dünya konyukturası üçün çox mühüm nəticələri var. Çünki bu ölkələr öz iqtisadi islahatları və toxunulmamış bazarları ilə kapitalist dünya sisteminə uyğunlaşmaq üçün nəinki xarici investorlar üçün, eləcə də Sovet rejiminin nəzarətindən azad edilmiş zəngin yeraltı sərvətləri ilə xarici dövlətlərin diqqətini cəlb edir [6; 7]. Ancaq burada soruşulması vacib bir sual iqtisadi islahatların ardınca demokratikləşmə hərəkatlarının olub-olmamasıdır.

Bu məqalənin əsas tədqiqat obyekti müstəqilliyin yenidən bərpa olunmasından sonra Azərbaycanın siyasi həyatının siyasi partiyalar nöqteyi-nəzərindən araşdırılması və formalaşmaqda olan siyasi mühitin müasir dövrün demokratikləşmə meyllərinə cavab verə bilmə qabiliyyətinin təhlil edilməsidir. Bu məqalədə bir sıra fərqli yerli və beynəlxalq məlumat mənbələrindən istifadə etməklə, qlobal miqyasda siyasi tədbirlərin siyasi və institusional göstəricilərini öyrənmək üçün verilənlər toplusunu bir araya gətiririk.

## Yeni siyasi mənzərə: böhran və yeni fürsətlər

Müstəqilliyin bərpasının ilk illərində sözügedən ölkələrdə demokratik institutların qurulmasında və ya şəffaflıqla işləməsində bir sıra gözlənilən problemlər yarandı. Xüsusilə Azərbaycanda Ermənistanla Dağlıq Qarabağ münaqişəsinin yaranması mərkəzi idarəetmənin kifayət qədər zəifləməsində özünü göstərdi. Daha geniş rakursdan qiymətləndirdikdə yenidən müstəqil olan türk respublikalarında və Qafqazda siyasi strukturlara ilk baxışda yeni vəziyyətin demokratiya üçün o qədər də ürəkaçan olmadığı görünməkdə idi [8]. Yeni müstəqillik qazanmış bu dövlətlərin siyasi vəziyyəti əksər yerlərdə ya avtoritar,

* *doktorant, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası*
e-mail: mikayil.yusif1@gmail.com

ya da formal demokratiyanın bərqərar olmasından kənara çıxa bilmirdi. Bu ölkələrin əksəriyyətinin müstəqillik əldə etdikdən dərhal sonra yeni konstitusiya hazırlaması demokratik inkişaf kimi qiymətləndirilə bilər [4; 5]. Çünki konstitusiya mahiyyət etibarilə "siyasi hakimiyyətin məhdudlaşdırılması" və "ictimai müqavilə" olması kimi xüsusiyyətləri ilə demokratik məqsədə yönəlmişdir. Bu baxımdan adları çəkilən ölkələrdə zamanla demokratik təcrübələrə keçid əlamətləri görünür [1, s. 260]. Lakin qeyd edilməlidir ki, təkcə konstitusiyanın varlığı kafi deyildir. Çünki demokratik quruluşdan danışmaq üçün daha bir çox elementin bir araya gəlməsi lazımdır. Belə ki, milli konstitusiyaların mövcudluğu ilə yanaşı, onun keyfiyyəti (məzmunu) da önəmlidir.

Türk cümhuriyyətləri və Qafqaz ölkələri siyasi strukturlarını demokratikləşdirmək üçün çox mühüm üstünlük əldə etmişlər. Bununla belə, müstəqilliyin ilk dönəmlərində onların demokratik gələcəyi baxımından əhəmiyyətli bir çatışmazlıq da var idi. Bu çatışmazlıq hələ də bu qəbildən olan bir sıra ölkələrdə davam etməkdədir. Bu çatışmazlıq həm də keçən əsrdə istilaya məruz qalmış üçüncü dünya ölkələrinin əksəriyyətində əsaslı problem kimi qəbul edilə bilər. Bu ölkələr müstəqillik əldə etdikdən sonra elmi siyasi ədəbiyyatında "keçid dövrü" adlanan prosesə qədəm qoydular. Bu dövrün ən fərqləndirici xüsusiyyəti iqtisadi inkişafı və sosial inteqrasiyanı həyata keçirmək üçün demokratiyanın müəyyən müddətə təxirə salınması oldu. Odur ki, bu ölkələr ümumən demokratiyanın mühüm şərtlərindən biri olan müstəqilliyə malik olsalar da, demokratiyanın digər şərtləri buna əməl etmirdi və ya ondan ikinci və üçüncü dərəcəli şərtlər olmaqdan kənara çıxa bilmirdi. Bu hal real mənada demokratiyanın bərqərar olması şərtləri ilə uyğun gəlmirdi. Nəticə etibarı ilə bu ölkələrin idarəetmə üslublarını formal olmaqdan, avtoritar və ya yarımavtoritar elementlərin birliyindən kənara çıxa bilməyən demokratiya kimi müəyyən etmək olardı.

**Müstəqilliyin bərpasından sonra Azərbaycan ilkin siyasi mühit**

Azərbaycanın 1991-ci ildə müstəqilliyi bərpa edənə qədər öz tarixində cəmi iki illik müstəqillik dövrü olub. Uzun illər çar Rusiyasının hakimiyyəti altında olan Azərbaycanın 1918-1920-ci illər arasında müstəqillik dövrü olub. Demək olar ki, Azərbaycanda XIX əsrin sonlarına doğru formalaşan millətçi ziyalı qrupunun müstəqillik tələblərinin yüksəlməsi bu müstəqillik dövrünün formalaşmasında təsirli olmuşdur. Bu yeni hökumət iki il ərzində bir çox iqtisadi və siyasi problemlərlə məşğul oldu. Lakin ruslar bu neft və sənaye mərkəzini öz tərkibinə daxil etməyə çalışırdı. Təbii resurslarının zənginliyindən ziyadə Azərbaycanın geosiyasi əhəmiyyəti Rusiyanın diqqətini cəlb etmişdi. Rusiyanın bu istəyi Qərb ölkələrinin yeni azad olan bir ölkə üçün potensial Rusiya təhlükəsini görməzdən gəlməsindən dolayı reallaşdı və Azərbaycan ruslar tərəfindən 1920-ci il 23 Aprel tarixində yenidən işğal edildi. Anadoluda da gedən milli mübarizə səbəbindən yardım göndərilə bilmədiyi üçün Azərbaycanın ilk müstəqillik təcrübəsi çox uzun çəkmədi.

Müstəqil Azərbaycan dövlətinin ilkin tarixinə nəzər saldıqda, əvvəlcə Çar Rusiyasının hakimiyyəti altında olan Azərbaycanı, daha sonra 1918-1920-ci illər arasında müstəqil Azərbaycanı və nəhayət, SSRİ-yə bağlı bir ittifaq respublikası kimi Azərbaycanı nəzərdən keçirmək lazımdır. Azərbaycanın demokratik gələcəyi baxımından bu portretdən çıxarılacaq nəticə o qədər də parlaq deyildir. Çünki demokratik oriyentasiyanı mümkün edə biləcək demokratik ənənələr və uzunmüddətli müstəqillik təcrübəsinin gətirəcəyi özünüidarə səriştəsi Azərbaycanın siyasi-inzibati təkamül sxemində mükəlləfiyyət kimi mövcud deyil [2, s. 146]. Yəni nəzərdə tutulan tarixi dövr ərzində Azərbaycan kimi bir ölkədə demokratik cəmiyyət qurmaq çətin məsələ idi. Çünki 1918-1920-ci illər arasındakı iki illik müstəqillik dövrünü çıxsaq, XVII əsrin sonlarında feodalizmdən sonra Azərbaycan bir əsrdən çox çar Rusiyasının hökmranlığından kommunist rejiminə keçmişdi. Ona

görə də ictimaiyyətin iştirak və qərarların qəbulu sahəsində təcrübəsi yox idi. Azərbaycanda demokratik təlim keçmiş, hazırlıqlı rəhbərlik yox idi.

Azərbaycanda 1980-ci illərin ikinci yarısından etibarən müstəqillik hərəkatları yenidən güclənməyə başladı. Əvvəlcə Ermənistanın Azərbaycanın Qarabağ bölgəsini özünə birləşdirmək cəhdlərinə etirazlar və qismən sosial tələblər ön planda olub, tədricən müstəqillik istəyi ön plana çıxıb. 1989-cu il dekabrın 31-də və 1990-cı il yanvarın əvvəllərində ölkənin hər yerində, xüsusən də paytaxt Bakıda nümayişlər radikallaşdıqdan və nümayişçilər tərəfindən iki Azərbaycan arasında sərhədlər dağıdılandan sonra SSRİ Kommunist Partiyasının katibi Qorbaçov sovet qoşunları Bakıya gəldi [3]. Sovet ordularının Bakıda həyata keçirdikləri qırğınlar əvvəlcə istiqlal hərəkatlarını bir az zəiflətsə də, bir müddət sonra nümayişlər yenidən başladı; Daxili və xarici proseslərə uyğun olaraq 1991-ci il oktyabrın 18-də Azərbaycan öz müstəqilliyini elan etdi. Bundan əvvəl 1989-cu il sentyabrın 23-də "Suverenlik haqqında", 1991-ci il mayın 25-də "İqtisadi müstəqillik haqqında" qanun və 30 avqust 1991-ci ildə "İstiqlal Bəyannaməsi" Azərbaycan parlamenti tərəfindən təsdiq edilib.

**Azərbaycanda siyasi partiyalar**

1991-ci ildə müstəqilliyin bərpasının ardından Azərbaycanın siyasi göstəricilərini 1992-ci ildə "Siyasi partiyalar haqqında" qanunun qəbulu və siyasi həyatın elementləri kimi hüquqi əsasda siyasi partiyaların mövcudluğu, 1995-ci il 12 noyabr tarixində yeni konstitusiyanın qəbulu, prezident idarəetmə üsuluna yaxın bir tətbiqin qəbulu və siyasi partiyaların fəaliyyəti ilə ümumiləşdirmək olar.

Azərbaycanda siyasi partiyalar siyasi həyatın elementləri kimi müstəqillikdən əvvəlki dövrdə də mövcud olub. Müstəqillikdən əvvəlki dövrdə Azərbaycan Xalq Cəbhəsi geniş iştirakla siyasi həyatda fəallıq göstərirdi. Müstəqillikdən sonrakı dövrdə "Siyasi partiyalar haqqında" qanunun qəbulu və AXC-dəki parçalanmalarla Azərbaycanın siyasi həyatında yüzdən çox siyasi partiya meydana çıxmağa başladı.

1980-ci illərin ikinci yarısından başlayaraq, Azərbaycan istiqlal mübarizəsi əvvəlcə xalq hərəkatı kimi meydana çıxsa da, bu hərəkatın tərkibində müxtəlif dövrlərdə yaradılmış gizli təşkilatlar da olmuşdur. Xalq hərəkatının digərləri ilə müqayisəsi mümkün olmayan ən mühüm təşkilatı Azərbaycan Xalq Cəbhəsi (AXC) olmuşdur. AXCP-nin əsası 1988-ci ilin yayında Bakı Alimlər Assosiasiyası tərəfindən qoyulmuşdur. 1989-cu ilin əvvəlindən başlayaraq AXCP ümumi xalq hərəkatına çevrildi. Sonrakı dövrlərdə AXCP-dən qopmalar olsa da, 1995-ci il parlament seçkiləri öncəsi siyasi partiyaya çevrilənə qədər Azərbaycanın daxili siyasətinin ən mühüm aktoru olduğunu rahatlıqla söyləmək olar. Bugünkü Azərbaycan siyasətində bir çox liderlər, demək olar ki, bütün partiyalardan bir çox yüksək vəzifəli məmurlar müstəqillik uğrunda mübarizə zamanı AXCP-də olublar. AXCP-nin 16 iyul 1989-cu ildə keçirilən birinci qurultayında Əbülfəz Elçibəy onun prezidenti seçildi. 1989-cu il oktyabrın 5-də Azərbaycan Nazirlər Kabinetinin AXCP-nin rəsmi tanınması ilə müxalifət təşkilatı ilk dəfə olaraq, rəsmi administrasiya tərəfindən tanındı. Müstəqillik mübarizəsi illərində geniş iştirakına və 1995-ci ilə qədər "daxili siyasətin ən mühüm aktoru" olmasına baxmayaraq, Azərbaycan Xalq Cəbhəsi Partiyası 2000-ci il seçkilərində Milli Məclisə yalnız 6 deputat çıxara bildi.

Azərbaycanın digər mühüm siyasi partiyaları olan Azərbaycan Sosial Demokrat Partiyası, Milli İstiqlal Partiyası, Müsavat Partiyası müstəqilliyin bərpası dönəmində qurulmuşdur. Azərbaycan Sosial Demokrat Partiyası (ASDP) ilk siyasi partiya kimi meydana çıxmışdır. SSRİ Konstitusiyasının 6-cı maddəsi Kommunist Partiyasından savayı ölkədə başqa partiyanın yaradılmasını qadağan etdiyi üçün 1989-cu il dekabrın 10-da yaradılmış partiya yalnız 1990-cı il iyulun 27-də Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən rəsmi şəkildə tanınmışdır. Araz Əlizadənin sədri olduğu partiya AXCP-dən kənar

yeganə siyasi struktur olduğu üçün ilk vaxtlarda ciddi təsir gücünə malik olsa da partiyanın bugünkü Azərbaycanın daxili siyasətində fəal mövqeyi olduqca zəifdir.

1991-ci ilin yayında AXCP-nin 2-ci qurultayında mötədillərin partiya daxilində mötədil-radikal qanad qarşıdurmasından qalib ayrılmasından sonra Azərbaycanda daha bir mühüm siyasi partiya yarandı. Radikal qanadın liderlərindən olan Etibar Məmmədov bu qurultaydan sonra AXC-dən ayrılaraq 1992-ci il iyulun 4-də öz tərəfdarları ilə birlikdə Azərbaycan Milli İstiqlal Partiyasını (AMİP) yaratdı və partiyanın birinci qurultayında onun sədri seçildi. AMİP həm də müstəqil Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən 17 iyul 1992-ci il tarixində rəsmi qeydiyyatdan keçən ilk partiyası oldu.

1992-ci il noyabrın 7-də Azərbaycanın siyasi həyatı üçün çox mühüm inkişaf baş verdi. Bu tarixdə 1918-ci il mayın 28-də ilk Azərbaycan Cümhuriyyətinin qurucularından biri olan, Rusiya işğalından sonra fəaliyyəti qadağan edilmiş, üzvlərinin əksəriyyəti həbs edilmiş və ya edam edilmiş və buna görə də öz fəaliyyətini Türkiyə başda olmaqla müxtəlif ölkələrdə yerinə yetirmiş olan Müsavat Partiyasının yenidən qurulması yolunda ilk konqresi Bakıda keçirildi. Əslində, hətta 1989-cu il oktyabrın 29-da Gəncə şəhərində bir qrup tərəfindən Azərbaycan Milli Demokrat Yeni Müsavat Partiyası yaradıldı və partiyanın "Yeni Müsavat" qəzeti Rauf Arifoğlunun rəhbərliyi ilə nəşr olunmağa başlandı. Partiyanın 1991-ci ildə keçirilən qurultayında adı dəyişdirilərək, Azərbaycan Milli Bərabərlik Partiyasına çevrildi. Əsası 1911-ci ildə İstanbulda mühacirətdə olan Məhəmməd Əmin Rəsulzadənin rəhbərliyi ilə əmisi oğlu Məhəmməd Əli Rəsulzadə, habelə Abbasqulu Kazımzadə və Tağı Nağıyev tərəfindən Bakıda qoyulmuşdur. Müstəqilliyin bərpasından sonra partiya 1992-ci il dekabrın 8-də Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən rəsmi dövlət qeydiyyatına alınmışdır.

Lakin bu yeni yaranan partiyalar ölkəni ağır iqtisadi, siyasi və mənəvi böhrandan çıxara bilmədi və əksinə, bir-birini əvəz edən hakim siyasi qüvvələr ölkədəki mövcud vəziyyəti daha da pisləşdirərək, təhlükəli böhran vəziyyətinə saldılar. Ölkədə hökm sürən dərin siyasi, iqtisadi və sosial böhran ziyalıları, tanınmış şəxsləri – xalqın aparıcı təbəqələrini narahat edirdi. Məhz buna görə də, Azərbaycanın müasir tarixində ən önəmli səhifəni isə Yeni Azərbaycan Partiyası təşkil edir.

Yeni Azərbaycan Partiyası (YAP) ölkənin ağır sınaqlardan keçdiyi bir dövrdə 1992-ci il noyabrın 21-də Heydər Əliyevin rəhbərliyi ilə yaradılmış Azərbaycanda hakim siyasi partiyadır. 1993-cü il oktyabrın 3-də Azərbaycan Prezidenti seçildikdən və 1995-ci il parlament seçkilərində partiyanın qələbə çalmasından sonra YAP iqtidar partiyasına çevrildi və o vaxtdan bu vəzifəni davam etdirir. Prezident İlham Əliyev YAP-ın 2005-ci il martın 26-da keçirilən III qurultayından indiyədək onun sədridir. YAP Asiya Siyasi Partiyalarının Beynəlxalq Konfransının (ICAPP) üzvü və Mərkəzçi Demokratlar İnternasionalının müşahidəçi üzvüdür.

Partiyanın bəyan etdiyi ideologiyalar qanunçuluq, dünyəvilik və Azərbaycan millətçiliyidir. O, "sosial yönümlü" iqtisadiyyat qurmaq istəyir, vətəndaş həmrəyliyini və sosial ədaləti ideologiyasının əsası kimi sadalayır. Partiyanın qurucusu Heydər Əliyev 1991-ci ilin iyul ayına qədər Sovet İttifaqı Kommunist Partiyasının üzvü olub. Yeni Azərbaycan Partiyasının proqramında dövlət müstəqilliyinin möhkəmləndirilməsi, demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu və vətəndaşların dinc və firavan həyat şəraitinin təmin edilməsi istiqamətində əsas vəzifələr qeyd olunub. Müstəqil dövlət, qanunçuluq, quruculuq, azərbaycançılıq, vətəndaş həmrəyliyi, sosial ədalət prinsipləri partiyanın ideologiyasının əsası elan edilib. Hal-hazırda 773 770 nəfər partiya üzvü vardır.

**Nəticə**

Göründüyü kimi, Azərbaycan Respublikasının müstəqilliyinin bərpasından sonrakı dövrü ötən əsrin 90-cı illərindən başlayır və günümüzə qədər davam edir. Siyasi hərc-

mərcliklər və kataklizmlərlə müşahidə olunan ilk illərin institusional prizmadan təhlilinin nəticəsi göstərir ki, siyasi gərginlik siyasi institutların fəaliyyətinə əsaslı dərəcədə mənfi təsir göstərir. Müstəqilliyin ilk illərindəki siyasi nizam-intizamsızlıq və Ermənistanla müharibədə alınan məğlubiyyətlər o dönəm hakimiyyətdə olan siyasi partiyaların fəaliyyətlərinin kövrəkliyi ucbatından getdikcə daha da çoxalır, bu dönüş isə özünü "bumeranq effekti" yaradaraq, siyasi institutların fəaliyyət potensiallarının daha da zəifləməsində əks etdirirdi.

Müstəqilliyin irəliləyən illərinin günümüzə qədər olan elmi təhlili göstərir ki, Azərbaycanda siyasi mənzərənin düzəlməsi yalnız Yeni Azərbaycan Partiyasının yaranması və hakimiyyətə gəlməsi ilə düzəldi. Qısa müddətdə mühüm irəliləyişlər əldə olundu. YAP-ın bir siyasi institut olaraq təhlili göstərir ki, mövcud siyasi vəziyyətin gərginliyi hər nə qədər çox olursa-olsun, əsaslı və siyasi anlamda məntiqi prinsiplərlə idarə olunan siyasi qurum mövcud böhranın aradan qaldırılmasında mühüm rola sahibdir.

## ƏDƏBİYYAT


1. Abbasbəyli A.N. Dünya Siyasəti (XX əsrin ikinci yarısı-XXI əsrin əvvəlləri), Bakı: "NURLAR" Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011, 583 s.
2. Azərbaycan Respublikası Milli Elmlər Akademiyası, Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu. Müasir Azərbaycanda Politologiya və Siyasi Sosiologiyanın aktual problemləri, II hissə, Bakı: Təknur, 2013, 282 s.
3. Azərbaycan tarixi. Yeddi cilddə. VII cild (1941-2002-ci illər), Bakı: Elm, 2008. 608 s.
4. İbadov N. Müqayisəli Politologiya, Dərs vəsaiti, Bakı: AzTU-nun mətbəəsi, 2010, 221 s.
5. İsgəndərzadə M. Politologiyanın əsasları, Bakı: Apostrof, 2012, 210 s.
6. Qvortrup M. Introduction – The Authoritative Allocation of Values: Policy Outcomes and Political İnstitutions // European Political Science, 2012, 11 (2), pp. 224-228.
7. Sartori G. Parties and Party Systems. Cambridge: Cambridge University Press, 1976, p. 383.
8. Scartascini C., Stein E., Tommasi M. Political Institutions, Intertemporal Cooperation, and the Quality of Public Policies // Journal of Applied Economics, 16 (1), 2013, pp. 1- 32.


***Summary***

***Mikayil Yusif***

***Democratization and Political Parties in Azerbaijan after Regaining İndependence***

The 90s of the last century were characterized by important changes on the world map. Successive decline of socialist and communist regimes led to the regaining of independence of a number of new states in both Europe and Asia. This gained independence was also reflected in the national political environment, which is a topic of interest to a number of political scientists today. The Republic of Azerbaijan is one of the countries investigated in this way. Since the first years of independence, Azerbaijan, located in an important geostrategic geography where the East and the West meet, began to show democratization tendencies. The fragile political environment caused by independence shows itself in the study and fundamental evaluation of the functioning mechanisms of political institutions in the form of political parties, which is the subject of this article. Although this topic has been studied by a number of researchers, its analysis from the perspective of democratization trends is new in the scientific literature. Following the introductory part, after the analysis of the crisis and opportunities brought by the regional political environment of the 90s, it is examined at a more local level - on the example of the Republic of Azerbaijan. As a continuation of this, democratization trends in the country and the important position of political parties in this trend are analyzed. As a result, it should be noted that the political environment began to moderate only after 1995, when the New Azerbaijan Party came to power in the country.

***Key words:*** *Political parties, institutional influence, political action, democratization, independence*

***Резюме***

***Микаил Юсиф***

***Демократизация и политические партии в Азербайджане после восстановления независимости***

90-е годы прошлого века характеризовались важными изменениями на карте мира. Последовательный упадок социалистического и коммунистического режимов привел к восстановлению независимости ряда новых государств как в Европе, так и в Азии. Эта обретенная независимость отразилась и на национальной политической среде, которая сегодня вызывает интерес у ряда политологов. Азербайджанская Республика является одной из стран, исследованных таким образом. С первых лет независимости Азербайджан, расположенный в важной геостратегической географии, где встречаются Восток и Запад, стал проявлять тенденции к демократизации. Хрупкость политической среды, вызванная независимостью, проявляется в изучении и фундаментальной оценке механизмов функционирования политических институтов в виде политических партий, что и является предметом данной статьи. Хотя эта тема изучалась рядом исследователей, ее анализ с позиции тенденций демократизации является новым в научной литературе. После вводной части, после анализа кризиса и возможностей, привнесенных региональной политической обстановкой 90-х годов, она рассматривается на более локальном уровне – на примере Азербайджанской Республики. В продолжение этого анализируются тенденции демократизации в стране и важная позиция политических партий в этой тенденции. В итоге следует отметить, что политическая обстановка стала смягчаться лишь после 1995 года, когда к власти в стране пришла партия «Ени Азербайджан».

***Ключевые слова:*** *Политические партии, институциональное влияние, политическое действие, демократизация, независимость*

Redaksiya heyətinin üzvü s.e.d., prof. Məmmədov Hikmət Baba oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.